# YENİ AZƏRBAYCANIN MEMARI, BÖYÜK XİLASKAR

Bütün həyatını doğma elobasının gələcəyinə və firavanlığına həsr etmiş, xalqını canından artıq sevmiş görkəmli dövlət xadimi, əbədi rəhbərimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı — 15 iyun Milli Qurtuluş Günü ölkəmizdə geniş miqyasda qeyd olunur. Həmin möhtəşəm tarixdən 22 il keçsə də, xalqımızın, millətimizin, respublikamızın xilasının başlanğıcı olan o gün heç birimizin yaddaşından silinmir. Bu əlamətdar günlərdə adamı bir şey daha çox düşündürür: görəsən xalqımızın dahi övladı Heydər Əliyev 1993-cü ildə Naxçıvandan Bakıya gəlməsəydi, yaxud bu gəliş bir-iki ay və ya bir neçə gün yubansaydı, nələr baş verərdi, xalqımızın başına daha hansı hadisələr gələrdi.

Heydər Əliyev sözün həqiqi mənasında xalqımızı bəlalardan qurtardı, inkişafımızın yolunda yeni bir mərhələni bina etdi. Bu tarixi gerçəkliyi bütün dünya qəbul edir, bu həqiqət xalqını, millətini, məmləkətini sevən hər bir azərbaycanlının qəlbində tükənməz qürur hiss doğurur və gələcək nəsillərimiz də daim bu duyğu ilə yaşayacaqdır.

Biləsuvarlılar Azərbaycanın müstəqilliyi və dövlətçiliyi üçün ən böyük təhlükə ilə üz-üzə gəldiyimiz 1993-cü ilin qızmar yay günlərini xatırlayırlar. Dövlət aparatı idarəetməni itirmişdi, Ermənistan silahlı dəstələri ölkəmizə meydan oxuyurdu, Gəncədə qardaş qanı tökülmüşdü, Lənkəranda Əlikram Hümbətov tərəfindən Azərbaycanı parçalamaq haqqında qərar qəbul edilmişdi, qondarma Talış-Muğan respublikası elan olunmuşdu, hər yerdə qanunsuz hərbi dəstələr yerli hakimiyyət orqanlarını zəbt edir, necə deyərlər, at oynadırdılar. Əhali təlatümlü günlər yaşayırdı, hərc-mərclik və xaos baş alıb gedirdi. Silahlı adamlar küçələrdə dolaşır, camaata hədə-qorxu gələrək onları öz məqsədlərinə tabe etdirməyə çalışırdılar.

Belə ağır bir zamanda xalqın təkidi ilə ulu öndərimiz yenidən hakimiyyətə qayıtdı, onun rəhbərliyi altında separatizm kimi bir dəhşətə sipər çəkmək üçün tədbirlər görüldü. Xain qüvvələr susduruldu, qanunsuz dəstələr tərk-silah edildi, separatizmin yuvası birdəfəlik ləğv olundu, insanlar rahat nəfəs aldılar. Dövlətçiliyimizin əleyhinə sonralar paytaxtda baş qaldırmış sui-qəsdlərin qarşısı da mərdliklə və cəsarətlə alındı, əsl rəhbərin başçılığı ilə ayağa qalxmış xalq nəyə qadir olduğunu, dövlətə və dövlətçiliyə sədaqətini bir daha nümayiş etdirdi.

Heydər Əliyev ölkəni ağır vəziyyətdən xilas etmək üçün kənd təsərrüfatını, sənayeni və başqa sahələri öz istedadı, bacarığı və zəkası ilə yenidən qurdu, Azərbaycanın yeni tarixini yazdı və bu tarix ana torpağın hər qarışına, hər bir insanın qəlbinin dərinliklərinə həkk olundu. Belə bir insanın dövlətçilik sahəsində fəaliyyətinin müxtəlif mərhələləri adamı valeh edir, onun əyilməz qüdrəti insanı heyrətə salır.

Bunun canlı ifadəsini sovet rejiminin ən qızğın vaxtlarında Azərbaycana rəhbərlik edən ulu öndərimizin milli ruhun inkişafına təkan verən cəsarətli əməllərində görmək mümkündür. Heydər Əliyev özünə xas olan müdrikliklə başa düşürdü ki, siyasi müstəqilliyi olmayan xalqın milli ruhunu oyatmağın ən səmərəli yolu onun iqtisadiyyatını yüksəltməkdir. Belə olanda xalqın özünə inamı artır, millət özünü ifadə etmək arzusunu daha geniş şəkildə ortaya qoymaq qüvvəsinə sahib olur. İqtisadi inkişafla yanaşı milli ruhu yüksəltməyə müsbət təsir göstərən mədəni-mənəvi intibah meyilləri də müstəqillik məfkurəsinin möhkəmlənməsində mühüm əhəmiyyət kəsb edir. Heydər Əliyev bütün canı və qanı ilə bu məfkurənin reallaşmasına səy göstərdi, ömrünü bu məsələnin gerçəkləşməsinə sərf etdi.

Heydər Əliyevin hakimiyyəti dövründə dövlət quruculuğunun digər mühüm sahələri ilə bərabər milli-siyasi ideologiyamız formalaşdı ki, bu da Azərbaycan vətəndaşlarının vahid amal ətrafında birləşməsini xeyli sürətləndirdi.

Heydər Əliyevin qurucusu olduğu, qısa bir zaman ərzində geniş inkişaf yoluna çıxardığı Azərbaycan dövləti hazırda öz iqtisadi, siyasi və mədəni qüdrətini durmadan artırır, bütün dünyada tanınır. Ümummilli liderimizin yaratdığı möhkəm təməl üzərində ölkəmizdə demokratik prinsiplər sürətlə bərqərar olur, dövlətçilik ənənələrimiz möhkəmlənir, bunların sayəsində yeni, işgüzar, güclü Azərbaycan yaranır.

Ümummilli lider Heydər Əliyevin yaratdığı sabitlik və əmin-amanlıq şəraiti üzərində bərqərar olan və respublika Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən müasir sosial-iqtisadi siyasət ölkəni keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxarmış, cəmiyyət həyatının bütün sahələrində böyük dəyişikliklərə səbəb olmuş, Azərbaycanı bölgədə lider dövlətə çevirmişdir. Müstəqilliyin ötən illəri iqtisadiyyatın intensiv inkişaf dinamikası, əsaslı struktur dəyişiklikləri, kompleks Dövlət proqramlarının və investisiya layihələrinin reallaşması ilə yadda qalmışdır. İqtisadiyyatın yüksəlişi müqabilində əhalinin maddi və mənəvi rifahı xeyli yaxşılaşmış, sabaha inam, yüksək əmək əhval-ruhiyyəsi formalaşmışdır. Rayonumuzun sakinləri özlərini bu nailiyyətlərin müəllifi olan ulu öndərimizin siyasətinə, onun el-obaya, sadə əmək adamına göstərdiyi diqqət və qayğıya görə minnətdar hesab edirlər.

Bəli, ümummilli liderimiz Heydər Əliyev doğma xalqı üçün elə işlər görmüşdür ki, onları nə tarix, nə xalq heç vaxt unutmayacaq. Böyük təntənə ilə qeyd etdiyimiz 15 iyun tarixi də həqiqətən xalqımızın həyatında əlamətdar bir gündür. Azərbaycanda 1993-cü ildən başlayaraq görülən tədbirlər, həyata keçirilən islahatlar öz bəhrələrini verməkdədir.

**Xəyalə QƏNBƏROVA,**
**Biləsuvar Rayon İcra Hakimiyyəti başçısının müavini.**